## MƏTBUAT ÜÇÜN AÇIQLAMA

### ATAF nümayəndə heyəti Ankarada işgüzar görüşlər keçirmişdir

**No: 08/20/68**
**19.06.2008**

14 iyun 2008-ci ildə Azərbaycan Türkiyə Tarixi Araşdırmalar Fondunun (ATAF) Himayəçilik Şurasının ilk iclasında iştirak etmək üçün Ankarada səfərdə olan Azərbaycan nümayəndə heyəti 16-17 iyun 2008-ci il tarixləri arasında bir sıra görüşlər keçirmişdir.

Azərbaycan Türkiyə İş Adamları Birliyinin İdarə Heyətinin sədri Ahmet Erentokun, Azərbaycan Milli Məclsinin üzvü, millət vəkili, Mədəniyyət Komissiyasının sədri, Atatürk Mərkəzinin direktoru, Azərbaycan-Türkiyə Parlamentlərarası Dostluq Qrupunun həmsədri Nizami Cəfərovun, Azərbaycan Milli Məclsinin üzvü, millət vəkili, Beynəlxalq Münasibətlər və Parlamentlərarası Əlaqələr Komissiyasının üzvü Asim Mollazadənin, Azərbaycan Milli Məclsinin üzvü, millət vəkili, Beynəlxalq Münasibətlər və Parlamentlərarası Əlaqələr Komissiyasının üzvü Qənirə Paşayevanın, Azərbaycan Milli Arxiv İdarəsinin müdiri Ataxan Paşayevin, Bakı Dövlət Universiteti Tarix fakültəsinin dekanı Sani Hacıyevin, Azərbaycan Türkiyə İş Adamları Birliyinin İdarə Heyəti sədrinin müavini Cemal Yangının, İdarə Heyəti üzvləri Fərhad Mehdiyev və Fatimə Aslanın, Birliyin baş katibi Rəşad Rəsullu, Birlik üzvləri Lütfi Ercan Günalp və İlham Alməmmədovun, Amerika Azərbaycanlıları Şəbəkəsinin (US Azeris Network) icraçı direktoru Adil Bağırovun daxil olduqları nümayəndə heyəti 16 iyun 2008-ci ildə ilk öncə Anıt Kabirə - Atatürkün mavzoleyinə rəsmi mərasimlə çələng qoydular. Çələngqoyma mərasimində Türkiyənin sabiq mədəniyyət naziri Namık Kemal Zeybek, Ankara Keçiören Bələdiyyəsinin sədri Turgut Altınok və Türk tarix Qurumunun sədri Yusuf Halaçoğlu da iştirak edirdilər.

Çələngqoyma mərasimindən sonra Türkiyə Böyük Millət Məclsinin sədri Köksal Toptan nümayəndə heyətini qəbul etmişdir. Azərbaycan-Türkiyə Parlamentlərarası Dostluq Qrupunun həmsədri, Türkiyə Parlamentinin üzvü Mustafa Kabakçı və Türkiyə Parlamentinin üzvü Haluk İpekin də iştirak etdiyi görüşdə nümayəndə heyətinin rəhbəri Ahmet Erentok cənab Köksal Toptana onları qəbul etdiyi üçün təşəkkürünü bildirdi və 14 iyun 2008-ci ildə keçirilmiş ATAF Himayəçilik Şurasının iclasının nəticələri barədə onu məlumatlandırdı. Cənab Köksal Toptan öz növbəsində başlanılan işi yüksək qiymətləndirərək qeyd etdi ki, çox mühüm bir sahədə mövcud olan boşluğu dolduracaq bu təşkilatın fəaliyyətinə hər cür dəstəyi verməyə hazırdır: “İlk dəfədir ki, belə bir təşkilat qurulur. Çox mühüm insanların cəmləşdiyi bu təşkilatın qarşısına qoyduğu məqsədləri əldə edəcəyinə əminəm və bu istiqamətdə hər cür kömək göstərməyə hazıram”.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az
**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**

Daha sonra Türkiyə Böyük Millət Məclisində nümayəndə heyətinin şərəfinə ziyafət verilmişdir.

16 iyun 2008-ci ildə nümayəndə heyətini həmçinin Türkiyə Respublikasının 9-cu Prezidenti, ATAF Himayəçilik Şurasının sədri, Azərbaycan Türkiyə İş Adamları Birliyinin fəxri üzvü Süleyman Demirel qəbul etmişdir. Görüş zamanı Himayəçilik Şurasının ilk iclasının yekunları barədə cənab Süleyman Demirelə məlumat verilmiş, onun fikir və tövsiyyələri dinlənilmişdir.

Həmin gün həmçinin Türkiyə Palatalar və Birjalar Birliyində (TOBB) nümayəndə heyətinin şərəfinə ziyafət verilmişdir. TOBB İdarə Heyətinin üzvü Ahmet Şəkəroğlu ATAF-ın yaradılması və fəaliyyətə başlamasını yüksək qiymətləndirmişdir. Daha sonra qarşılıqlı fikir mübadiləsi edilmiş və iki təşkilat arasında əməkdaşlıq imkanları müzakirə edilmişdir.

17 iyun 2008-ci ildə nümayəndə heyətini Türkiyə Respublikası Baş Qərargahının Ümumi Plan və Prinsiplər İdarəsinin rəisi Korpus Generalı H.Akın Soylu qəbul etmişdir. Cənab H. Akın Soylu ATAF-ın fəaliyyətinə uğurlar arzulayaraq bildirmişdir ki, bu təşkilata qanunvericiliyin yol verdiyi çərçivələr daxilində hər cür dəstək verməyə hazırdırlar.

Qeyd edək ki, ATAF Azərbaycan və Türkiyə tarixinin araşdırılması və ortaq problemlərin müəyyən edilməsinə köməklik göstərilməsi, onların həlli yollarının müəyyən edilməsi və təkliflər hazırlanması; regionda xalqların sülh və əmin-amanlıq mühitində yaşamalarına və iqtisadi inteqrasiyaya mane olan problemlərin həllinə və bu çərçivədə regionun iqtisadi rifahının yüksəlməsinə töhfə vermək məqsədilə yaradılmışdır..

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az

**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**